VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 147-163
Telif Haqqı©Varlıq Dergisi

Güney Azərbaycan'da Milli Dirənişin Sembolu M.T. Zehtabi

• **Prof. Dr. Pervanə MƏMMƏDLİ** [1]

Xülasə: Məqalədə Məhəmmədtağı Zehtabinin həyat yolu, elmi-pedaqoji fəaliyyəti və bədii yaradıcılığı araşdırılır. Onun milli düşüncəsinin formalaşmasında Təbrizin ədəbi-mədəni mühiti, Azərbaycan Milli Hökuməti dövrü, siyasi təqiblər, Sibir sürgünü və mühacirət həyatının rolu göstərilir. Zehtabinin elmi və bədii irsində ana dili, milli hafizə, tarixi özünüdərk, vətən, qürbət və azadlıq mövzularının əsas yer tutduğu müəyyənləşdirilir.

Alimin dilçilik, ədəbiyyat tarixi və tarixşünaslıq sahəsindəki fəaliyyəti, Azərbaycan türkcəsinin öyrədilməsi və yazı normalarının formalaşdırılmasına töhfələri qiymətləndirilir. Qədim tarixə dair bəzi tezislərinin müasir elmi metodlarla yenidən araşdırılmasına ehtiyac olduğu da qeyd edilir. Nəticədə Zehtabinin irsi elmi araşdırma, bədii yaradıcılıq və maarifçiliyin vəhdəti kimi dəyərləndirilir, onun ana dilinin, tarixi yaddaşın və milli-mədəni kimliyin qorunmasına mühüm töhfə verdiyi vurğulanır.

Açar sözlər: Məhəmmədtağı Zehtabi, Güney Azərbaycan, Azərbaycan ədəbiyatı, ana dili, milli kimlik, milli hafizə, mühacirət, poeziya, maarifçilik.

[1] AMEA Ədəbiyat Ənstitusu, Güney Azərbaycan Ədəbiyatı Bölümü, e-post: mamedli_ph@yahoo.com; ORCİD: 0000-0002-0297-7638

VARLIQ والريق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 147-163
Telif Haqqı©Varlıq Dergisi

Güney Azerbaycan'da Millî Direnişin Sembolü: M. T. Zehtabi

• **Prof. Dr. Pervane MEMMEDLİ** [1]

Özet: Makalede Muhammed Taki Zehtabi'nin hayatı, bilimsel-pedagojik faaliyetleri ve edebî yaratıcılığı incelenmektedir. Millî düşüncesinin oluşumunda Tebriz'in edebî-kültürel ortamının, Azerbaycan Millî Hükûmeti döneminin, siyasi takibatların, Sibirya sürgününün ve muhaceret hayatının rolü ortaya konulmaktadır. Zehtabi'nin bilimsel ve edebî mirasında ana dili, millî hafıza, tarihî öz bilinç, vatan, gurbet ve özgürlük konularının önemli bir yer tuttuğu belirlenmektedir.

Zehtabi'nin dil bilimi, edebiyat tarihi ve tarih yazıcılığı alanlarındaki faaliyetleri ile Azerbaycan Türkçesinin öğretimi ve yazı normlarının oluşturulmasına katkıları değerlendirilmektedir. Eski tarihe ilişkin bazı tezlerinin çağdaş bilimsel yöntemlerle yeniden incelenmesi gerektiğine de dikkat çekilmektedir. Sonuç olarak Zehtabi'nin mirası; bilimsel araştırma, edebî yaratıcılık ve aydınlanmacı faaliyetin bir bütünü olarak değerlendirilmekte, ana dilinin, tarihî hafızanın ve millî-kültürel kimliğin korunmasına önemli katkıda bulunduğu vurgulanmaktadır.

Anahtar sözcükler: Muhammed Taki Zehtabi, Güney Azerbaycan, Azerbaycan edebiyatı, ana dili, millî kimlik, millî hafıza, muhaceret, şiir, aydınlanmacılık.

[1] AMEA Ədəbiyat Ənstitusu, Güney Azərbaycan Ədəbiyatı Bölümü, e-post: mamedli_ph@yahoo.com; ORCİD: 0000-0002-0297-7638

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 147-163
Telif Haqqı©Varlıq Dergisi

M. Zehtabi: Symbol of National Resistance in South Azerbaijan

• **Parvaneh MAMMADLI** [1]

Abstract: This article examines the life, scholarly and pedagogical activities, and literary works of Muhammed Taki Zehtabi. It explores the role of Tabriz's literary and cultural environment, the period of the Azerbaijan National Government, political persecution, exile in Siberia, and his life in emigration in shaping his national consciousness. The study demonstrates that the mother tongue, national memory, historical self-awareness, homeland, exile, and freedom occupy a central place in Zehtabi's scholarly and literary legacy.

The article also evaluates Zehtabi's work in linguistics, literary history, and historiography, as well as his contributions to the teaching of Azerbaijani Turkish and the development of its written norms. It further draws attention to the need to re-examine some of his theses concerning ancient history in light of contemporary scholarly methods. In conclusion, Zehtabi's legacy is assessed as an integration of scholarly research, literary creativity, and intellectual enlightenment, emphasizing his significant contribution to the preservation of the mother tongue, historical memory, and national-cultural identity.

Keywords: Muhammed Taki Zehtabi, South Azerbaijan, Azerbaijani literature, mother tongue, national identity, national memory, emigration, poetry, enlightenment.

[1] Institute of Literature of ANAS, Department of South Azerbaijani Literature, e-mail: mamedli_ph@yahoo.com; ORCID: 0000-0002-0297-7638

VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 147-163
Telif Haqqı©Varlıq Dergisi

محمدتقی زهتابی
نماد مقاومت ملی در آذربایجان جنوبی

• **پروفسور دکتر پروانه ممدلی**[۱]

چکیده: در این مقاله، زندگی، فعالیت‌های علمی ـ آموزشی و خلاقیت ادبی محمدتقی زهتابی مورد بررسی قرار می‌گیرد. نقش محیط ادبی ـ فرهنگی تبریز، دوره حکومت ملی آذربایجان، تعقیب‌های سیاسی، تبعید به سیبری و زندگی در مهاجرت در شکل‌گیری اندیشه ملی او تبیین می‌شود. همچنین نشان داده می‌شود که زبان مادری، حافظه ملی، خودآگاهی تاریخی، وطن، غربت و آزادی جایگاهی اساسی در میراث علمی و ادبی زهتابی دارند.

فعالیت‌های زهتابی در حوزه‌های زبان‌شناسی، تاریخ ادبیات و تاریخ‌نگاری، همچنین سهم او در آموزش زبان ترکی و شکل‌گیری هنجارهای نوشتاری آن ارزیابی می‌شود. افزون بر این، بر ضرورت بازنگری برخی از دیدگاه‌های او درباره تاریخ باستان بر پایه روش‌های علمی معاصر تأکید می‌شود. در نتیجه، میراث زهتابی به‌عنوان مجموعه‌ای به‌هم‌پیوسته از پژوهش علمی، آفرینش ادبی و فعالیت‌های روشنگرانه ارزیابی شده و نقش مهم او در حفظ زبان مادری، حافظه تاریخی و هویت ملی ـ فرهنگی مورد تأکید قرار می‌گیرد.

کلیدواژه: محمدتقی زهتابی، آذربایجان جنوبی، ادبیات آذربایجان، زبان مادری، هویت ملی، حافظه ملی، مهاجرت، شعر، روشنگری.

[۱] مؤسسه ادبیات آکادمی ملی علوم آذربایجان، بخش ادبیات آذربایجان جنوبی، ایمیل: mamedli_ph@yahoo.com؛ اورسید: 0000-0002-0297-7638

VARLIQ واریق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 147-163
Telif Haqqı©Varlıq Dergisi

Güney Azərbaycan'da Milli Dirənişin Sembolu M.T. Zehtabi

● **Prof. Dr. Pərvanə MƏMMƏDLİ**

Azərbaycan'ın ictimai-fikir tarixində xalqının maariflənməsi, milli haqları və azadlığı uğrunda ardıcıl mübarizə aparmış ziyalılar sırasında Məhəmmədtağı Zehtabi'nin xüsusi yeri vardır. O, yalnız ictimai-siyasi fəaliyyəti ilə deyil, Türkoloji, tarixi, dilçilik və ədəbiyatşünaslıq araşdırmaları, eləcə də bədii yaradıcılığı ilə Güney Azərbaycan'ın 20-ci əsr elmi-mədəni həyatında mühüm rol oynamışdır. Zehtabi'nin fəaliyətinin başlıca istiqaməti uzun illər təzyiq və məhdudiyətlərlə üzləşmiş Azərbaycan Türklərinin dilini, tarixini və mənəvi irsini araşdırmaq, milli yaddaşın qorunmasına xidmət etmək idi.

Məhəmmədtağı Zehtabi Güney Azərbaycan'da mədəniyəti və tarixi saxtalaşdırılıb təhrif edilmiş xalqın mənəvi irsini yenidən arayıb araşdırmışdır.

Həyat yolu və elmi formalaşması

Məhəmmədtağı Məhəmmədəli oğlu Zehtabi 1923-cü il desambrın 13-də Şəbüstər'in "Çay küçəsi" məhəlləsində kirişçi ailəsində anadan olmuşdur. İbtidai təhsilini yerli məktəbdə almış, lakin ailəsinin maddi vəziyətinə görə təhsilini yarımçıq qoyaraq ata-baba sənəti olan kirişçilik və əkinçiliklə məşğul olmuşdur. Buna baxmayaraq, təhsilini davam etdirmək istəyindən vaz keçməmişdir.

1938-ci ildə Təbriz'ə gedərək böyük qardaşı Yusif'in yanında yaşamış, burada "Fiyuzat" məktəbində doqquzuncu sinfi bitirmişdir. 1941-ci ildə Təbriz texnikumuna daxil olmuş, eyni zamanda Rüşdiyə məktəbində müəllim işləməyə başlamışdır. 1942Ḍ1943-cü tədris ilində Təbriz'də Firdovsi darüşşüərasının filoloji bölməsini bitirdikdən sonra Rüşdiyə və Ədəb məktəblərində müəllimlik etmişdir. Ali təhsil almaq arzusunda olsa da, maddi imkanları Tehran Üniversitəsi'ndə oxumasına yol verməmişdir.

Zehtabi'nin milli düşüncəsinin və ədəbi fəaliyətinin şəkillənməsində 1940-cı illərin Təbriz mühiti mühüm rol oynadı. O, Mirzə Əli Şəbüstər'inin redaktorluğu ilə Azərbaycan Türkcəsində nəşr edilən *Azərbaycan* qəzetində məqalə və şeirlərlə çıxış edir, gənclər təşkilatının fəallarından biri kimi fəaliyət göstərirdi. Sonralar həmin dövrü xatırlayaraq yazırdı:

> "1945-ci il gəldi. *Azərbaycan* qəzeti yenə də nəşr olmağa başladı. Bu qəzetlə tanışlıq məni ayrılmaz şəkildə ana dilimə bağladı. Ana dilimdə yazmağa başladım. Bu dövrdən ana dilimi elmi cəhətdən öyrənmək ürəyimdə mühüm hədəf və arzularımdan birinə çevrildi. Ana dilimi sevdim, sevdikcə dərinləşdim və dərinləşdikcə onu daha artıq sevdim." (Məmmədli,1999:44)

Bu etiraf Zehtabi'nin sonrakı fəaliyətini anlamaq üçün açar mahiyət daşıyır. Ana dili onun üçün milli varlığın əsas göstəricisi və elmi araşdırmanın başlıca predmeti idi.

Məktəbdə oxuduğu illərdə şeir yazmağa başlayan gənc Məhəmmədtağı həmyerlisi Mirzə Əli Möcüz Şəbüstəri'nin satirik şeirindən təsirlənmişdi. İlk şeirləri 1941-ci ildə Təbriz'də çıxan *Azərbaycan* və *Xavər-i No* qəzetlərində çap olunmuşdur.

M.T. Zehtabi öz üzərində ardıcıl işləyir, dil öyrənməyə xüsusi əhəmiyət verənlərdən idi. Təbriz'də Hacı Yusif Şüar'ın təşkil etdiyi dərslərdə Ərəb, katolik kilsəsi nəzdində fəaliyət göstərən kurslarda isə Fransız dilini öyrənmişdi. Ana dili ilə yanaşı Fars və Ərəb dillərinə yiyələnmiş, sonralar mühacirət illərində Rus dilini də öyrənmişdi. (Məmmədli,1999:42)

1945Ḍ1946-cı illərdə Azərbaycan Demokrat Firqəsi'nin Gənclər Təşkilatı'nda fəal çalışan Zehtabi 1946-cı ildə Azərbaycan Milli Hökuməti'nin Təbriz'də açdığı üniversitənin ədəbiyat fakültəsinin ilk tələbələrindən biri olur. Burada Seyid Cəfər Pişəvəri'nin "Dünya Ədəbiyatı" mövzusunda oxuduğu mühazirələri dinləmişdi.

Milli Hökumət'in süqutu Zehtabi'nin həyatında kəskin dönüş yaratdı. Təbriz Üniversitəsi bağlandı, hərəkatın iştirakçıları və tərəfdarları təqib edildi. Gənc Zehtabi iki ilə yaxın gizli yaşamağa məcbur oldu.

1948-ci ildə təhsilini davam etdirmək və siyasi təqiblərdən qurtulmaq məqsədilə Sovet sərhədini keçdi. Lakin ümid etdiyi azad mühit əvəzinə həbs və sürgünlə qarşılaşdı. Sərhədi qanunsuz keçməkdə ittiham edilərək Sibir'ə göndərildi. Onun Sovet Azərbaycanı'na çatmaq üçün başladığı yol beləliklə bir neçə illik ağır sınağa çevrildi.

Məhz bu mürəkkəb tarixi və şəxsi təcrübə Zehtabi'nin şeirinin əsas düşüncə istiqamətlərindən birini müəyyənləşdirdi. Onun məşhur "Sən osan, mən də buyam" şeiri ana dilinin sıxışdırılmasına, insanın öz dilindən və milli kimliyindən uzaqlaşdırılmasına qarşı poetik etiraz kimi meydana çıxdı:

Su deyibdir mənə əvvəldə anam, ab ki, yox,
Yuxu öyrətdi uşaqlıqda mənə, xab ki, yox.
İlk dəfə ki, çörək verdi mənə, nan demədi,
Əzəlində mənə duzdanə nəməkdan demədi.
Anam əxtər deməyibdir mənə, ulduz deyib o,
Su donanda deməyibdir yəxdi, bala, buz deyib o…

Şeirin poetik məntiqi sadə, lakin təsirlidir: müəllif siyasi və ideolojik mübahisəni uşağın ilk eşitdiyi sözlərə ġ su, yuxu, çörək, ulduz, buz kimi ilkin dil vahidlərinə qaytarır. Beləliklə, ana dili nəzəri anlayış olmaqdan çıxaraq insanın ailə hafizəsi, uşaqlığı və mənəvi kimliyi ilə bağlanır.

Sibir'də iki il ağır şəraitdə yaşadıqdan sonra gənc Zehtabi Tacikistan'ın paytaxtı Düşənbə'yə göndərilir. Yaşadığı sarsıntılara baxmayaraq, ali təhsil almaq fikrindən əl çəkmir. Orta məktəb haqqında sənədləri yanında olmadığı üçün yenidən axşam məktəbində oxuyaraq attestat alıb və Bakı Dövlət Üniversitəsi'nə müraciət etmişdi.

Sonralar xatirələrində üniversitənin rektoru, akademik Yusif Məmmədəliyev'lə görüşünü xüsusi qeyd edirdi. Rektor yüksək qiymətlərini görərək ona kimya fakültəsində oxumağı təklif etdikdə Zehtabi "Azərbaycan dili və ədəbiyatı"nı seçməsinin səbəbini bir cümlə ilə ifadə etmişdi: "*Hörmətli akademik, mənim xalqımın ehtiyacı bunadır."*(Zehtabi, 2011:5)

1954-cü ildə Azərbaycan Dövlət Üniversitəsi'nin Filoloji Fakültəsi'nə daxil oldu. Sonrakı on beş il ərzində burada pedaqojik fəaliyət göstərdi.

1970-ci ildə "Əbu Nəvvas'ın Həyatı və Yaradıcılığı" mövzusunda tezini müdafiə edərək elmi dərəcə aldı. Üniversitədə çalışdığı illərdə Ərəb dili və ədəbiyatını tədris etməklə yanaşı, tələbələrinin milli-mənəvi düşüncəsinin formalaşmasına da təsir göstərirdi.

1961-ci ildən etibarən Iraq'da yaşamaq və elmi fəaliyətini orada davam etdirmək üçün Bağdad Üniversitəsi'nə müraciət etmiş, uzun sürən

rəsmi prosedurlardan sonra 1971-ci ildə Iraq'a köçəbilmişdir. (Kafkasyalı, 2002: 214)

Bağdad Üniversitəsi'ndə qədim Türk dili və Fars dilindən dərs demiş, dilçilik üzrə əsərlər yazmışdır. Onun hazırladığı dərs vəsaitlərindən üniversitə tədrisində istifadə edilirdi, elmi fəaliyəti əsasında üniversitənin elmi şurası tərəfindən profesor adı verilmişdi.

Avropa'ya səfərlərinin birində Güney Azərbaycanlı tələbələrlə görüşən Zehtabi onların Azərbaycan Türkcəsini öyrənmək üçün uyğun dərs vəsaiti tapabilmədiklərini görmüşdür. Bu ehtiyac onu "İran Türkcəsinin Sərfi" adlı əsəri yazmağa sövq etmiş, kitab 1976-cı ildə Almaniya'da tələbələrin köməyi ilə çap olunmuşdur (Talıblı, 2022).

Bədii yaradıcılığı:

Zehtabi daha çox tarixçi, dilçi və Türkoloq kimi tanınsa da, bədii yaradıcılığı onun elmi-ictimai fəaliyətindən ayrı götürülə bilməz. Şeir, poema, mənzum hekayə və nəsr əsərlərində də elmi əsərlərində müdafiə etdiyi milli dil, tarixi hafizə, azadlıq və vətən düşüncəsi ön plana keçir.

Əsərlərini müxtəlif illərdə Mişovlu, Şəbüstərli, Kirişçi, Gülşən, M. T. Zehtabi və başqa imzalarla çap etdirmişdir. (Məmmədli, 2015 :32)

"Çelik Əfsanəsi", "Pərvanənin Sərgüzəşti", "Bəxti Yatmış", "Bağban Eloğlu", "Bəzz Qalası'nda", "Mişov'un Əfsanələri", "Qoy Olsun On", Farsca yazdığı "Həsti-ye Nəsim", eləcə də "Şahin Zəncirdə" onun bədii irsinin mühüm nümunələrindəndir. Bu əsərlər müxtəlif illərdə Bağdad, İstanbul, Berlin və Təbriz'də nəşr edilmişdir.

Bakı'da çap olunan "Başqa Dilim, Elim Var Mənim" kitabına isə Zehtabi'nin əsasən vətəndən ayrı düşdüyü, mühacirətdə yaşadığı 1947Ḍ 1978-ci illərdə Sibir, Aşqabad, Düşənbə, Bakı, Berlin və Bağdad'da qələmə aldığı şeirlər daxil edilmişdir. (Zehtabi, 2011:6)

Şair öz sürgününü, qürbətini və məhrumiyətlərini yalnız fərdi faciə kimi təqdim etmirdi. Sibir sürgününün ağır təcrübəsini əks etdirən "Şahin zəncirdə" şeirində azadlıq və zindan qarşıdurması bu baxımdan səciyyəvidir:

Dünya, nələrin var?
Əfsanələrin var?
Biçarə bəşər, ölçüyə gəlməz kədərin var.
Qanlar tökərək qandalı qırdın ayağından,
Qandalları yığdın və qayırdın yekə zindan!

Burada paradoks azadlıq adı ilə yaradılan yeni əsarətdir. "Qandalı qırmaq" və həmin qandallardan "yekə zindan" düzəltmək obrazı 20-ci əsrin totalitar təcrübəsinin yığcam poetik ifadəsinə çevrilir.

Düşənbə illərində yazdığı "Mən Diriyəm" şeirində isə sürgünün yaratdığı ümidsizlikdən daha çox mənəvi müqavimət hiss olunur:

Hələ ölməmişəm, diriyəm, diri!
Azər əsgərinin biriyəm, biri;
Sinnim ötməmişdir, otuzdur yaşım,
Bu fırtınadan da əyilməz başım,
Hələ xidmətlərim gələcəkdədir!

Bu misralarda "mən" fərdi özünütəsdiqdən daha geniş məna qazanır. **"**Azər əsgərinin biriyəm" deyən lirik qəhrəman şəxsi mövcudluğunu xalq qarşısında yerinə yetirilməli olan vəzifə ilə əsaslandırır.

Zehtabi'nin bioqrafisi ilə şeiri arasındakı bağlılığı göstərən nümunələrdən biri "Xatirə" şeiridir. Otuz üç yaşında yenidən tələbə ortamına qayıtması onun üçün həm ağrılı, həm də ironik bir vəziyət idi:

"*Rəhbər" yoldaşların mərhəmətindən*
Otuz üç yaşında tələbəyəm mən.
Halbuki uçmağa qanadım da var,
Susmayan, gür, möhkəm fəryadım da var.

Onun şeirlərində qürbət insanın öz dilindən, təbii ictimai mühitindən və milli-mənəvi hafizəsindən ayrı düşməsidir. Bu baxımdan Zehtabi'nin şeirində vətən həsrəti sentimental nostalji çərçivəsindən çıxaraq milli məzmun qazanır.

Zehtabi təbiəti, insanı və gözəlliyi həssaslıqla duyan lirik şairdir:

Olaydım bala pərvanə mən,
Ya qoca divanə mən,
Ya ki gözəllər qoxuyan bir ətir,
Ya Mişovu'nda açılan bir çiçək,
Ya ki Səhən'dlə öpüşən bir külək…
Kaş ki dönüm bir oxuyan bülbülə,
Ya saralan bir gülə,
Xəlqə həyat bəxş eləyən neysana.

Bu misralarda Mişov və Səhənd sadəcə təbiət detalları deyil. Şairin hafizəsində onlar doğma məkanın poetik nişanələrinə çevrilir. Pərvanə, çiçək, külək, bülbül, gül kimi klasik obrazlar isə vətənə qovuşmaq istəyinin müxtəlif ifadələridir.

Təbiət lirikasında da doğma yurdun mənzərəsi insan gözəlliyi ilə qovuşur:

Yaz ki gəlir, gül bitirir torpağın,
Şölələnir rövnağın…

Qızlar oğurlayır çiçəyin rəngini,
Ta ki, yanaqlar dönüb al güllərə,
Yar olalar nəğməli bülbüllərə.

Zehtabi'nin sevgi şeirlərində ictimai-siyasi şeirlərindəki sərt intonasiyon yumşalır. Minlərlə insan qarşısında danışabilən, siyasi mübarizədən çəkinməyən lirik qəhrəman sevgilisinin qarşısında söz tapmaqda aciz qalır:

Bilmirəm, nədənsə bu qadir dilim
İki söz deməyə acizdir indi.
Qoy yazım:
Səni…
Ax! Qələmim sındı!
Qələm də dözməzmiş buna, nə bilim?!

Burada şeirin təsiri vəziyətin psikolojik təbiiliyindən yaranır. "Qadir dil"lə "iki söz deməyə aciz" qalmaq arasındakı ziddiyət lirik qəhrəmanın daxili həyəcanını ifadə edir.

M.T. Zehtabi öz xarakterini də obrazlaşdırmağı bacarırdı:

Dayanabilməyən zaman kimiyəm.
Zahirən sakitəm dənizlər tək,
Leyk batində bir tufan kimiyəm…
Gözlərəm bir qasırğa, bir mizrab,
Köklənən köhnə bir kaman kimiyəm.

"Köklənən köhnə kaman" obrazı şairin daxili vəziyətini dəqiq ifadə edir: Zahiri sakitliyin arxasında hər an səslənməyə hazır gərginlik vardır.

Pəhləvi hakimiyətinin sərtləşdiyi dövrdə bir çox gənclərin ölkədən çıxış yolu axtarması Zehtabi'nin diqqətindən yayınmırdı. Özü mühacirətin bütün ağırlığını yaşamış şair "Kiçik Qardaşıma" şeirində vətəni tərk etməyi qurtuluş yolu hesab edənlərə müraciət edir:

Vətəni tərk etmək xəyalındasan,
Mən də doğru sandım onu bir zaman…
Qonaq çağrılmasa, bir söz var eldə,
Qalar astanada, süpürülməz yerdə.

Burada folklor ifadəsinin poetik mətnə gətirilməsi təsadüfi deyil. Zehtabi xalq dilinin və folklor təfəkküründün imkanlarından istifadə edərək şəxsi təcrübəsini ümumiləşdirir.

Onun qürbət haqqında qənaəti daha sərt misralarda belə ifadə olunur:

Alçaqlar başına tac-ı sər olar,
Aslanlar kiriyər, tülkü nər olar.

Döyüşdə aslanlar qazanan tacı,
Qürbətdə ilanlar qoyar qeyqacı.
Vətəni atmağın min bəlası var,
Qavalın uzaqdan xoş sədası var.

Sonuncu misra xalq arasında işlənən "qaval uzaqdan xoş gələr" deyiminin poetik variantıdır. Şair öz həyat təcrübəsi ilə folklor müdrikliyini birləşdirir. Onun fikrincə, uzaqdan cazibədar görünən yad məkan insan üçün həmişə azadlıq və səadət demək deyil.

Bu düşüncə aşağıdakı iki misrada aforistik şəkil alır:

Səadət yurduna getmək asandır,
Səadət gətirmək lakin yalandır.

Zehtabi'nin şeirində bu fikri mühüm ideya xəttidir: Səadəti hazır şəkildə başqa bir məkanda tapmaq deyil, onu öz vətənində yaratmaq lazımdır.

Zehtabi'nin bədii yaradıcılığının diqqətə layiq nümunələrindən biri "Pərvanənin Sərgüzəşti" poemasıdır. Əsərdə şair klasik Pərvanə obrazını yeni məzmunda işləmişdir.

Əsərdə Araz'ın o tayını nicat və azadlıq məkanı hesab edən, lakin sonradan bu təsəvvürün həqiqət olmadığını görən bir nəslin faciəli təcrübəsi poetikləşdirilir:

Çünki qanadım odda yanan dəmdə, bir anlıq
Gördüm necə məhv oldu ışıqlarda qaranlıq!
Ḍ Yanmaqda da, biçarə, dedim, varmı həqiqət?
Ḍ Yanmaqda həqiqət sənə əfsanədir, əlbət.

Pərvanə klasik Şərq şeirində eşq, sədaqət və özünü fəda etmənin ən geniş yayılmış sembollarındandır. Fuzuli şeirinin vurğunu olan Zehtabi həmin ənənəvi obrazı 20-ci əsrin siyasi və mənəvi reallığına gətirərək onun semantikini dəyişdirir.

Onun pərvanəsi yalnız eşq odunda yanan aşiq deyil. O, zülmətə qarşı işıq axtaran, bu işığı öz yurduna aparmaq istəyən mübariz insandır. (Şəhbazi, 2026)

Buradakı od klassik şeirdə olduğu kimi yalnız eşqin işarəsi deyil; maariflənmə, azadlıq və üsyan mənaları daşıyır. "Bir qucaq atəş"i yurda aparmaq arzusu ışığın və oyanışın vətənə daşınması düşüncəsini ifadə edir. Beləliklə, klasik pərvanə motivi siyasi-mənəvi müqavimət obrazına çevrilir.

Poemanın başqa bir yerində fiziki əsarətlə mənəvi azadlıq qarşılaşdırılır:

Eyni düşüncə "Şahin Zəncirdə" poemasında daha bütün bir sembolik sistem yaradır:

İllər boyu zəncirdə qalsam da, varam mən,
Qəlbimdə mənim sarsımamış zərrəcə iman.
Bir gün zəncirimi axır qıraram mən,
Ərk'in başına qanla qızarmış qanadımdan
Bayraq vuraram mən!

Burada şahin, zəncir, qanad, Ərk və bayraq bir-birini tamamlayan rəmzlərdir. Şahin azadlığın və məğrurluğun, zəncir əsarətin, qanad azad hərəkətin, Ərk isə Təbriz və milli hafizənin semboluna çevrilir. Bayraq obrazı bu semantik sıranı tamamlayaraq fərdi azadlıq istəyini milli azadlıq idealına bağlayır.

Araz Əhmədoğlu da poemanın sembolistik olmasına diqqət çəkərək "şahin", "zəncir", "Qaf Dağı", "şimşək", "Mişov", "Xəzər", "qürbət", "həsrət", "zülmət", "od" və "ilan" kimi sözlərin mətn daxilində ilkin leksik mənalarından daha geniş məna qazandığını göstərir. (Əhmədoğlu, 2016)

Xüsusilə şimşək obrazı əsərin dinamizmini müəyyənləşdirir. Şimşək qaranlığı yarır, yatmışları diksindirir və ani ışıq yaradır. Bu mənada obraz şairin maarifçi-mübariz mövqeyi ilə səsləşir.

Zehtabi'nin bədii yaradıcılığında tarixi şəxsiyətlərə müraciət də mühüm yer tutur. "Bağban Eloğlu" poemasında Məşrutə hərəkatının iştirakçılarından Həsən Bağban'ın mübarizə yolu bədii şəkildə canlandırılır:

Yerin sinəsindən çıxan saf bulaqlar kimi,
Elin sinəsindən qopub ıldırım tək şaxandan bəri
Nə qəlbində pul var, nə şöhrət, nə ad.
Özü sadə bağban, ürəkdən polad.
Onun dərdi bir el olub, bir vətən.

Bu portrədə xalq qəhrəmanının əsas xüsusiyəti onun sosyal mövqeyi deyil, mənəvi bütövlüyüdür. "Sadə bağban" və "ürəkdən polad" qarşılaşdırması qəhrəmanın zahiri sadəliyi ilə daxili qüdrətini üz-üzə gətirir.

"Bağban Eloğlu"nun ilk varyantı Bağdad'da, sonrakı təkmilləşdirilmiş forması Təbriz'də nəşr olunmuşdur. Poemada Məşrutə inqilabının fəal iştirakçılarından Həsən Bağban'ın həyatı və mübarizəsi bədii materiala çevrilmişdir.

Zehtabi'nin Məşrutə hərəkatına marağı yalnız bədii yaradıcılıqla məhdudlaşmırdı. O, bu dövrə aid arşiv materyallarını və tarixi sənədləri

araşdırır, inqilabın yaranma səbəbləri barədə öz elmi mövqeyini irəli sürürdü.

Bu yanaşma Zehtabi'nin tarixə münasibətinin əsas xüsusiyətini göstərir: O, tarixi hadisəni yalnız siyasi mərkəzlərin fəaliyəti ilə deyil, xalqın daxili oyanışı, maarifçilik və milli şüurun inkişafı ilə əlaqələndirməyə çalışırdı.

"Bağban Eloğlu" da bu baxımdan tarixi hadisənin sadəcə poetik təsviri deyil. Zehtabi rəsmi tarixdən daha çox xalq hafizəsində yaşayan qəhrəmanı ön plana çıxarır. Həsən Bağban'ın obrazında Məşrutə hərəkatının sosyal bazasını, xalq içərisindən çıxan və "el və vətən" dərdini daşıyan mübariz insan tipini yaratmağa çalışır.

Nəsr yaradıcılığı

Məhəmmədtağı Zehtabi'nin bədii irsində nəsr əsərləri sayca çox olmasa da, onun dünyagörüşünün başqa bir tərəfini ġ humanist düşüncəsini üzə çıxarır. Təbriz'də 1982-ci ildə çap olunmuş "Qoy Olsun On" kitabında ədibin yer alan hekayələrdə Güney Azərbaycan'ın tarixindən, insanlarından və həyat hadisələrindən bəhs edir.

Topludakı bəzi hekayələr hekayə-xatirə karakteri daşıyır. Kitabın da adnı daşıdığı "Qoy Olsun On" hekayəsinin mövzusu İranĎIraq savaşının doğurduğu ağır sosyal nəticələrlə bağlıdır. Savaş insanların həyatını dağıdır, ailələr başsız, uşaqlar yetim qalır. Belə bir şəraitdə doqquz uşağını çətinliklə dolandıran Azərbaycanlı kontor işçisi yetim qalmış daha bir uşağı öz himayəsinə götürmək qərarına gəlir: "qoy doqquz yox, on olsun". (Məmmədli, 2000 :76)

Sadə süje üzərində qurulan hekayənin mənəvi ağırlıq mərkəzi də məhz buradadır. Zehtabi savaşın yaratdığı fəlakətin qarşısına adi insanın mərhəmətini və təmənnasız xeyirxahlığını çıxarır. Maddi çətinlik içərisində yaşayan insan özündən də ağır vəziyətə düşmüş uşağa arxa çevirmir.

Bu mənada "Qoy Olsun On " Zehtabi'nin siyasi və milli mövzulu əsərlərindən fərqlənsə də, onun ümumi yaradıcılıq mövqeyindən kənara çıxmır. Burada da insanın mənəvi ləyaqəti əsas meyar olaraq qalır.

Tarix və dil konsepsiyası

1979-cu ildə Pəhləvi rejiminin devrilməsindən sonra Məhəmmədtağı Zehtabi uzun illərin ayrılığından sonra İran'a qayıtdı. Otuz ilə yaxın davam edən mühacirətdən sonra yenidən Təbriz'də, öz xalqının içərisində yaşamaq onun həyat və fəaliyətində yeni mərhələ açdı.

Təbriz Üniversitəsi'ndə Azərbaycan Türkcəsi və Ərəb dilini tədris edən alim ana dilini öyrənmək istəyən yüzlərlə gəncin marağı ilə

qarşılaşdı. Bu, onun üçün ana dilində sistemli təhsil imkanından məhrum edilmiş bir cəmiyətin öz dilinə qayıdış ehtiyacının göstəricisi idi.

Məhz dərs vəsaitlərinə olan ehtiyacı nəzərə alaraq Zehtabi dilçilik sahəsində fəaliyətini genişləndirdi. "Müasir Azərbaycan Ədəbi Dilinin Leksikolojisi", "Ana Dilimizi Öyrənək", "Ana Dilimizi Necə Yazaq" kimi əsərlərin meydana gəlməsi bu ehtiyacla bağlı idi.

Zehtabi'nin fəaliyəti üniversitə ortamı ilə məhdudlaşmırdı. O, Təbriz'də Azərbaycan Türkcəsinin öyrədilməsi üçün təşkil edilən kursların yaradılmasında yaxından iştirak edir, müəllim və gənclərin hazırlanmasına çalışırdı. İnqilabdan sonra Təbriz radyo və televiziyonunda Azərbaycan Türkcəsində veriliş aparacaq kadrların yetişdirilməsində də onun rolu olmuşdur.

1981-ci ildə "Mütərəqqi İran Türklərinin Rövşənfikirlər (Ziyalılar) Cəmiyyəti"nin yaradılmasında iştirak etmiş, *Birlik* adlı Farsca və Türkcə aylıq nəşrin meydana gəlməsinə təşəbbüs göstərmişdir. (Talıblı, 2022)

Təbriz'də fəaliyət göstərən "Azərbaycan Mədəniyyət Ocağı" da onun maarifçilik fəaliyətinin mühüm adreslərindən biri idi. Zehtabi burada uzun illər Azərbaycan ədəbiyatı, dili və tarixi ilə bağlı mühazirələr oxuyur, gənclərlə işləyirdi.

Onun qəzetəçilik və tərcümə fəaliyəti də bu ümumi maarifçilik xəttinin tərkib hissəsidir. Berlində *Ərk* dərgisinin, Bağdad'da isə müxtəlif dillərdə *İttihad Yolu* nəşrinin çapında iştirak etmiş, Fransız ədəbiyatından tərcümələr etmişdir. Əliağa Vahid'lə birlikdə klasik ədəbiyatdan tərcümələri də onun çoxşaxəli ədəbi fəaliyətini göstərir.

Zehtabi dilçiliklə yanaşı ədəbiyat tarixi və folklor məsələlərinə də müraciət etmişdir. "İslama Qədərki İran Türklərinin Dili və Ədəbiyatı", "Əruzun Türk Folklorundakı İzləri" kimi araşdırmaları onun dil, ədəbiyat və folkloru bir-biri ilə əlaqədə öyrənmək cəhdinin nəticəsi idi.

Əslində, Zehtabi'nin müəllim, dilçi, tarixçi və ədəbiyatşünas fəaliyətini bir-birindən ayırmaq çətindir. Bu sahələrin hamısını birləşdirən əsas xətt ana dili və milli hafizənin qorunması idi. O, elmi araşdırmanı maarifçilikdən, maarifçiliyi isə milli özünüdərkdən ayrı təsəvvür etmirdi.

Məhəmmədtağı Zehtabi'nin elmi irsinin ən geniş və eyni zamanda ən çox müzakirə tələb edən istiqamətlərindən biri İran Türklərinin qədim tarixi ilə bağlı araşdırmalarıdır. Onun bu sahəyə müraciət etməsinin əsas səbəbi mövcud İran tarixşünaslığında Azərbaycan Türklərinin tarixi və etnik mənşəyi haqqında irəli sürülən konsepsiyalarla razılaşmaması idi. Zehtabi'yə görə, İran Türklərinin qədim keçmişi ya kifayət qədər araşdırılmamış, ya da hakim milli ideolojinin təsiri altında bir tərəfli təqdim edilmişdi.

Bu mövqedən çıxış edərək o, uzun illər topladığı materyalları "İran Türklərinin Əski Tarixi" adlı iri həcmli əsərində ümumiləşdirmişdir. Əsərin birinci cildi ən qədim dövrlərdən Makedoniyalı İskəndər'in yürüşlərinə qədərki tarixi əhatə edir.

Zehtabi burada Yaxın Şərqin qədim xalqları, dövlətləri, dilləri və mədəniyətləri arasında əlaqələr qurmağa, qədim mənbələrdəki etnonim, toponim və dil materyallarını Türk tarixi kontekstində şərh etməyə çalışır. Onun tədqiqat metodunda tarixi mənbələrlə yanaşı dil faktları, yer adları, folklor və etnoqrafik materiallardan da istifadə edilir. "Cənubi Azərbaycan Tarix Elminə Bir Baxış" bölməsində Zehtabi İran tarixşünaslığının bir sıra nümayəndələrini, xüsusilə Həsən Pirniya'nın "İran-e Bastan" əsərindəki etnik mənşə konsepsiyasını tənqid edir. Onun fikrincə, Azərbaycan Türklərinin sonradan Türkləşmiş İrandilli əhali olması haqqında nəzəriyə kifayət qədər əsaslandırılmamışdır. (Zehtabi, 1999:175)

Zehtabi bu yanaşmaya alternativ olaraq İran və Azərbaycan ərazilərində Türk dilli əhalinin tarixinin daha qədim dövrlərə gedib çıxdığını irəli sürür, fikrini arkeolojik materyallar, toponimlər, folklor və dil paralelləri ilə əsaslandırmağa çalışır.. Zehtabi'nin əsas xidməti rəsmi tarix konsepsiyasına alternativ suallar verməsi, Güney Azərbaycan Türkünün öz tarixini araşdırmaq haqqını elmi və ictimai problemə çevirməsidir.

Bu baxımdan onun "İslam'a Qədər İran Türklərinin Dili və Ədəbiyatı" əsəri də səciyəvidir. Zehtabi kitabın girişində qədim tarixi yalnız siyasi hadisələrin ardıcıllığı kimi deyil, dil və ədəbiyat tarixini anlamağın zəruri şərti kimi təqdim edir. Onun fikrincə, xalqın dilinin və ədəbiyatının keçdiyi yolu öyrənmək üçün həmin xalqın siyasi, iqtisadi və mədəni tarixini də nəzərə almaq lazımdır.

Bu metodolojik fikir özlüyündə əhəmiyətlidir: Dil və ədəbiyat tarixi ictimai tarixdən təcrid edilə bilməz.

Zehtabi ömrünün sonuna qədər pedaqojik fəaliyətini davam etdirdi. Onun maarifçilik modeli rəsmi təhsil sistemi ilə məhdudlaşmırdı. Müxtəlif dərnəklərdə, kurslarda və kiçik qruplarda Azərbaycan Türkcəsini, tarixini və mədəniyətini təmənnasız öyrətməsi Güney Azərbaycan mühitində alternativ maarifçilik ənənəsinin yaranmasına xidmət edirdi.

Onun üçün milli şüurun formalaşmasının ilkin şərti insanın öz dilini, tarixini və mədəniyyətini bilməsi idi. Buna görə kitab yazmaqla müəllimlik etmək Zehtabi'nin fəaliyətində eyni məqsədin iki müxtəlif formasıdır.

Bir tərəfdən elmi və publisistik əsərlər yazır, digər tərəfdən gənclərlə bilavasitə işləyirdi. Bu xüsusiyət onu kabinet alimi çərçivəsindən çıxararaq alim-maarifçi tipinə yaxınlaşdırır.

Zehtabi'nin elmi irsinin Güney Azərbaycan üçün başlıca əhəmiyəti də burada görünür: O, elmi biliyi milli özünüdərkin vasitəsinə çevirməyə çalışmışdır.

Zehtabi'nin şəxsiyətində diqqəti çəkən cəhətlərdən biri öz fəaliyətini ön plana çıxarmağa meyilli olmaması idi. O, daha çox gördüyü işdən, yazmaq istədiyi əsərlərdən, dil və tarix məsələlərindən danışırdı. Şəxsi taleyindən bəhs edəndə belə, söhbəti çox vaxt xalqının problemlərinə gətirib çıxarırdı.

Bu xüsusiyət onun yaradıcılığında da aydın görünür. Şəxsi "mən" çox vaxt milli "biz"in içərisində əriyir. Sürgün, qürbət, həbs, vətəndən uzaqlıq kimi fərdi yaşantılar əsərlərində ümumiləşərək xalqın dil, kimlik və azadlıq problemlərinin ifadəsinə çevrilir.

Zehtabi çağdaş Güney Azərbaycan'da milli tarix, dil və kimlik məsələlərini ardıcıl araşdıran görkəmli tədqiqatçılardan biri idi. Onun həyat yolu ilə elmi fəaliyəti arasında ciddi bir bütövlük vardır: Hansı mövzuda yazmasından asılı olmayaraq, əsas qayəsi xalqının tarixi yaddaşının, ana dilinin və milli-mədəni varlığının qorunması idi.

Bu mövqeyinə görə müxtəlif siyasi mühitlərdə fərqli damğalarla üzləşmişdi. Vətənində "pantürkist", Sovet mühitində isə "millətçi" adlandırılması əslində onun hər iki ideolojik sistemə sığmayan müstəqil milli mövqeyinin nəticəsi idi.

Zehtabi yalnız yazıb-yaradan alim deyil, həm də yetişdirən ziyalı idi. Onun təsiri kitablarının sayı ilə məhdudlaşmırdı. Dərs dediyi tələbələr, yaratdığı və iştirak etdiyi dil kursları, ədəbi-mədəni məclislər və yetişdirdiyi gənclər onun fəaliyyətinin canlı davamçılarına çevrilmişdilər.

Ömrünün böyük hissəsini qürbətdə, sürgündə və siyasi təzyiqlər altında keçirən Məhəmmədtağı Zehtabi 1998-ci ilin desambrında qəflətən vəfat etmiş və doğulduğu Şəbüstər'də dəfn olunmuşdur. Onun məzarı bu gün də xatirəsini yaşadan insanların ziyarət etdiyi məkanlardan biridir.

Qaynaqlar

ƏHMƏDOĞLU, A. (2016, 12 mart). Təbrizdən ötüb keçdi Mərəndi… *Xalq Cəbhəsi*.

ƏLƏKBƏRLİ, F. (2021). *Azərbaycan türk fəlsəfi və ictimai fikir tarixi: XIXḌXX əsrlər* (C. 3). Elm və Təhsil Nəşriyyatı.

KAFKASYALI, A. (2002). *İran Türk Edebiyatı Antolojisi* (C. 5). Atatürk Üniversitesi Basımevi.

MƏMMƏDLİ, P. (1999). Cavabı 70 il boyu axtarılan sual. *21 Azər*, (2).

MƏMMƏDLİ, P. (2000). Qəlbi daim millət sevgisi ilə döyünən ziyalı. *Güney Azərbaycan: Məqalə toplusu*. Orxan.

MƏMMƏDLİ, P. (2015). *Dərdi bir qürbət, bir də vətən olan aydın (M. Zehtabi).* Sabah.

ŞƏHBAZİ, H. (t.y.). Zehtabinin şeirində köhnə simvol yeni ruh qazanır… *Kulis.az*.

TALIBLI, S. (2022, 1 iyul). Babək Qalası Qurultayı: Onun əhəmiyyəti və təsirləri barədə. *Ətəkyazı*.

ZEHTABİ, M. (1367). *Bağban Eloğlu*.

ZEHTABİ, M. (2011). *Başqa dilim, elim var mənim: Şeirlər* (P. Məmmədli, Translit., tərt. və ön söz). Elm.

ZEHTABİ, M. (1975). *İran şahlarının 2500 illik cinayətləri* [Fars dilində].

ZEHTABİ, M. (1999). *İran türklərinin əski tarixi* (2 cilddə).

ZEHTABİ, M. (M. Şəbüstərli). (1380). *İslama qədər İran türklərinin dili və ədəbiyyatı*. Əxtər.

ZEHTABİ, M. (1379). *Müasir ədəbi azəri dili (səsḌsərf)*. Aşina.

ZEHTABİ, M. (1982). *Qoy olsun on*.

ZEHTABİ, M. (2011). *Şahin zəncirdə: Seçilmiş əsərləri*.

ZEHTABİ, M., SADIQOĞLU, Ç. (2007). Azərbaycan ədəbiyyatı ən qədim dövrlərdə. *Azərbaycan ədəbiyyatı tarixi* (6 cilddə). Elm.

Pervane MEMMEDLİ [0000-0002-0297-7638](https://orcid.org/0000-0002-0297-7638)

Prof. Dr. Azerbaycan Milli Bilimler Akademisi Edebiyat Enstitüsü.

Yazı Bilgisi:

Alındığı Tarih: 14 Eylül 2026

Yayına Kabul edildiği tarih: 28 Eylül 2026

E-yayın tarihi: 5 Ekim 2026

Çıktı sayfa sayısı: 17

Kaynak sayısı: 17